**“Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanını “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 12, maddə 844; 2001, 7, maddə 470, 10, maddə 640; 2002, 12, maddə 725; 2003, 9, maddə 475, 10, maddələr 569, 585; 2004, 9, maddə 678; 2005, 5, maddə 400; 2006, 7, maddə 590; 2007, 5, maddə 452, 6, maddə 599, 11, maddə 1097; 2008, 7, maddə 613; 2009, 3, maddə 163, 12, maddə 990; 2010, 6, maddə 498, 7, maddə 610; 2013, 10, maddə 1146; 2014, 5, maddə 477) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi Qaydaları”nın 4.2-ci bəndinin onuncu abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Özəlləşdirilən dövlət əmlakı yerli əhəmiyyətli memarlıq abidəsi olduqda, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi həmin qərarı Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırır. ”.

2. Həmin Fərmanla təsdiq edilmiş “İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında Əsasnamə”nin 4-cü hissəsinin birinci cümləsinə “icarə müqaviləsi” sözlərindən sonra “, icarəyə verilən obyekt dövlət mülkiyyətində olan yerli əhəmiyyətli daşınmaz memarlıq abidəsi və ya onun ayrı-ayrı hissələri (arxeoloji abidələr istisna olmaqla) olduqda, elmi, mədəni, dini, xidmət və turizm məqsədləri üçün onların istifadə proqramı, uyğunlaşdırma və bərpa layihələrinə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin razılığı” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 sentyabr 2015-ci il
612